# Özəl vergi məsləhətziləri ilə treninq keçirilmişdir

Azərbaycan Respublikası Prezidentinin 12 sentyabr 2005-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında vergi inzibatçılığının təkmilləşdirilməsi Dövlət Proqramı»nda özəl vergi məsləhəti xidmətlərinin təşkili üçün tələb olunan təşkilati və normativ-hüquqi bazanın hazırlanması, özəl vergi məslətçiləri üçün tədris proqramının hazırlanması və Vergilər Nazirliyinin Tədris Mərkəzində xüsusi kursların təşkil olunması nəzərdə tutulmuşdur. Verilmiş tapşırığın icrası istiqamətində Vergilər Nazirliyi tərəfindən son dövrlərdə bir sıra layihələr həyata keçirilmiş və bu işlər davam etdirilir.

Aparılan müşahidələr göstərir ki, bir çox hallarda vergi ödəyiciləri qanunla müəyyənləşdirilən hüquq və vəzifələrini dəqiq bilmirlər, elektron xidmətlərdən yararlanmaq imkanları məhduddur və bütün bunlar da vergi öhdəliklərinin qanunla müəyyənləşdirilən qaydada və müddətlərdə yerinə yetirilməməsi ilə nəticələnir.

Qeyd olunan çatışmazlıqların aradan qaldırılması, vergi ödəyicilərinə ixtisaslı şəxslər tərəfindən vergi məsləhəti xidmətlərinin göstərilməsi, nəticə olaraq vergi ödəyiciləri tərəfindən vergi öhdəliklərinin qanunla müəyyənləşdirilən qayda və müddətlərdə yerinə yetirilməsinə nail olmaq məqsədilə Vergilər Nazirliyi tərəfindən təsdiq edilmiş «Vergilər Nazirliyinin yerli vergi orqanlarının vergi ödəyicilərinə xidmət strukturlarının fəaliyyəti üzrə 2012-ci ilin 3-cü rübü üçün Tədbirlər Planı»nda özəl vergi məsləhəti xidməti göstərən şəxslərlə «Vergi qanunvericiliyinin tətbiqi, vergi ödəyicilərinin hüquq və vəzifələri, vergi öhdəliklərinin yerinə yetirilməsi, hesabatların düzgün tərtib edilməsi, mövcud elektron xidmətlər və bu sahədə yeniliklər» mövzusunda treninqlərin təşkil olunması yerli vergi orqanlarına tapşırılmışdır.

Avqustun 30-da Bakı Şəhər Vergilər Departamentində (BŞVD) özəl vergi məsləhəti xidməti göstərən şəxslərlə treninq  keçirilmişdir. Treninqdə çıxış edən BŞVD-nin Vergi ödəyicilərinə xidmət idarəsinin rəisi Elman Dadaşov verilmiş tapşırığın icrasını təmin etmək məqsədilə ilk olaraq vergi orqanında olan uçot-baza məlumatlarına əsasən özəl vergi məsləhəti xidməti göstərməsi ehtimal edilən şəxslərin siyahısı müəyyənləşdirilmiş, onlara gələcək əməkdaşlığın istiqamətlərinin müəyyənləşdirilməsi üçün xidmət göstərdikləri vergi ödəyicilərinin siyahısının vergi orqanına təqdim edilməsi barədə bildirişlər göndərilmiş, fərdi qaydada görüşlər keçirilmiş və ilk olaraq 10127 vergi ödəyicisinə özəl vergi məsləhəti xidməti göstərən 198 şəxsin siyahısı müəyyənləşdirilmişdir. İştirakçılara vergi qanunvericiliyinin tətbiqi, vergi ödəyicilərinin hüquq və vəzifələri, vergi öhdəliklərinin yerinə yetirilməsi və hesabatların düzgün tərtib edilməsi barədə məlumatlar vermişdir.

BŞVD-nin Vergi ödəyicilərinə xidmət idarəsinin Məlumatlandırma və vergi təbliğatı şöbəsinin rəisi Məhərrəm Əmiraslanov, həmin şöbənin böyük DVM-i Rafael Dadaşov mövcud elektron xidmətlər və bu sahədəki vəziyyət barədə söhbət açmışlar. Departamentin  Vergi ödəyicilərinə xidmət idarəsinin Vergi ödəyicilərinin qəbulu və xidmət şöbəsinin rəisi Ramil Şəkərov və həmin idarənin Xidmətin təşkili şöbəsinin rəisi Məhəmməd Məmmədli tərəfindən mövzularla bağlı interaktiv təqdimatlar keçirilmişdir. Görüşün sonunda vergi ödəyicilərinin sualları cavablandırılmış və onlara vergilərə aid  bukletlər paylanmışdır.

Rəşad SADIQOV